# REFRAKTOMETRİK ÜSULLA KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ VƏ TORPAQDA PESTİSİDLƏRİN QALIQ MİQDARININ TƏDQİQİ

**İsa Ələsgərov, Natiq İsmayılov, Xəyalə Abbasova, Rəna İbayeva**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, eleskerov.55@gmail.com, lovely-angel-1993@mail.ru*

Pestisidlərin kənd təsərrüfatında müxtəlif xəstəliklərə və ziyanvericilərə qarşı geniş miqyasda istifadəsi onların torpaqda, bitkilərdə və qida məhsullarında müəyyən miqdarda toplanmasına, canlılar üçün potensial təhlükə mənbəyi yaratmasına gətirib çıxarmışdır.

Bütün dünyada bitki mühafizə sistemində əsas yeri kimyəvi mübarizə üsulu tutur. Bu üsul məhsulun qorunmasında son dərəcə böyük rola malik olmasına baxmayaraq, ətraf mühitin pestisidlərlə çirklənməsinə və canlılar üçün təhlükə mənbəyi olmasına şərait yaradır.

AR KTN Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun təcrübə-sınaq sahəsində oidium xəstəliyinə qarşı Vixen – 50q/ha və Knoxboro – 10ml/ha norması üzrə fungisidlər qarışığı çiləndikdən 20 gün sonra üzüm bağından bitkinin yarpaq və zoğlarından analiz üçün nümunələr götürdük. Həmin nümunələrdə fungisidlərin ümumi qalıq miqdarları araşdırıldı.

**Cədvəl**. Üzümün yarpaq və zoğlarında pestisidlərin ümumi qalıq miqdarı, mq/kq

| № | Bitki hissəsi | Pestisidlərin ümumi qalıq miqdarı, mq/kq |
|---|---|---|
| 1 | Yarpaq | 0,16 |
| 2 | Zoğ | 0,68 |
| 3 | Yarpaq (nəzarət-su çilənmiş) | 0 |
| 4 | Zoğ (nəzarət-su çilənmiş) | 0 |

Optiki analizator ABBE refraktometrdən istifadə edərək üzüm bitkisinin yarpaq və zoğlarında pestisid qalığını 0,01 dəqiqliklə araşdırdıq.

Müasir dövrdə kənd təsərrüfatı məhsullarında və torpaqda pestisid qalıqlarının analizi və miqdarının təyini üçün daha mükəmməl GC/MS/MS Pesticides Analyzer markalı müasir ölçü vasitəsi mövcuddur. Lakin biz daha sadə, ucuz və ekspres optiki analizatorla tədqiqat aparmışıq. Tədqiqat zamanı Abbe AR4 refraktometrindən istifadə edilmişdir.